# Nəsirəddin Tusinin “Əsasül-iqtibas” əsəri əsasında məntiqə dair terminlər lüğəti

# Nəsirəddin Tusinin “Əsasül-iqtibas” əsəri əsasında məntiqə dair terminlər lüğəti

**Elmi məsləhətçi:** *Məmməd Əliyev*
fəlsəfə elmləri doktoru, professor

**Elmi redaktor:** *Əkrəm Bağırov*
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Tərtibçi:** *Məlikov Ələddin Mehman oğlu*
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

Nəsirəddin Tusinin "Əsasül-iqtibas" əsəri əsasında məntiqə dair terminlər lüğəti. Bakı: Elm, 2022, – 36 səh.

ISBN 978-9952-556-44-5

655 (07) – 2022

© "Elm" nəşriyyatı, 2022

## ÖN SÖZ

Azərbaycan elm tarixini tədqiq edərkən dövrün tələbindən çıxış edilərək ərəb və fars dillərində yazılmış çoxlu əsərlərə rast gəlirik. Bu əsərlərdən biri də dahi alim Nəsirəddin Tusinin fars dilində məntiqə dair yazdığı Əsasül-iqtibas əsəridir. Əsər ilk dəfə 2022-ci ildə nəşr edilərək oxucu və tədqiqatçıların ixtiyarına verilmişdir. Əsasül-iqtibas əsəri XIII əsrin ortalarında yazılmışdır. Əsərin yazılmasından təqribən səkkiz əsrə yaxın vaxt keçmişdir. Bu müddət ərzində həmin əsərdə istifadə edilən bir sıra termin və sözlər artıq müasir fars dilində istifadə edilmir. Əsərin məntiqə aid olması və həm də bir sıra sözlərin günümüzdə istifadə edilməməsi onun tərcüməsini çətinləşdirən amillər kimi qeyd etmək olar. Bundan əlavə burada istifadə edilən bəzi terminlərin gündəlik danışığımzda fərqli mənada istifadə edildiyindən həmin sözlərin və terminlərin izah edilməsi zərurəti yaranmışdır. Habelə orta əsr müəlliflərinin əsərlərinin tədqiqi zamanı eyni bir sözün müxtəlif müəlliflər tərəfindən fərqli mənalarda işlədildiyinin də şahidi oluruq ki, bu da həmin termin və anlayışların Azərbaycan dilinə tərcüməsi zamanı izahının verilməsinə ehtiyac yaradır. Hal-hazırda müraciət etdiyiniz bu kitab Nəsirəddin Tusinin ən mühüm və genişhəcmli əsərlərindən biri olan "Əsasül-iqtibas"ın tərcüməsi zamanı əsərin orijinalında işlədilmiş ərəb-fars sözlərinin izahlı tərcüməsi yönündə tərtib edilmişdir. Bu lüğətlərin tərcüməsi və izahı ilə tanış olmaqla Nəsirəddin

Tusinin ərəb-fars dillərində yazılmış digər əsərlərinin tərcüməsi zamanı da yararlanmaq olar.

Müəyyən bir ixtisas və peşəni və ya həmin peşə və ixtisasa aid olan terminləri başa düşmək üçün həmin istiqamət üzrə tərtib edilən terminolji lüğətlərə ehtiyac duyulur. Bu istiqamətdə zaman-zaman müxtəlif ixtisaslar üzrə terminoloji lüğətlərin nəşr edildiyini müşahidə edirik. Azərbaycan dilində məntiqi terminlərin izahından ibarət xüsusi termonoloji lüğətlərin də tərtib edilməsi zərurəti vardır. Çünki məntiq terminlərinin izahınına adətən rus dilində yazılmış ədəbiyyatda, bir neçə terminin izahı verilmiş məntiq kitablarında və ya fəlsəfi terminlərdən ibarət ensiklopediya və lüğətlərdə rast gəlmək mümkündür. Bir tərəfdən, yaranmış boşluğu doldurmaq, digər tərəfdən isə məntiq ixtisası üzrə təhsil alan tələbə və mütəxəssislərə kömək etmək üçün bu lüğəti tərtib etmək qərarına gəldik. 222 sözün izah və tərcüməsindən ibarət olan bu kitabı həmin istiqamətdə olan boşluğu doldurmaq üçün kiçik və eyni zamanda mühüm bir addım hesab etmək olar. Burada sözlərin tərcüməsi ilə yanaşı bir sıra terminlərin izahı da verilmişdir. Əsasən Əsasül-iqtibas adlı məntiqi əsəri tərcümə edərkən qarşıya çıxan çətin və mürəkkəb sözlərin izahının verilməsinə üstünlük verilmişdir. Tərcümə zamanı müxtəlif illərdə nəşr edilən Əsasül-iqtibas əsərlərinə də müraciət edilmişdir. Bu əsərlərin bəzisində Əsasül-iqtibas əsərində istifadə edilən bəzi terminlərin izahı da verilmişdir. Bu izahlar bəzən tərcümə zamanı ifadənin daha səlis və daha dəqiq başa düşülməsinə imkan vermişdir. Bu

lüğət kitabı tərtib edilərkən həmin əsərlərdə mövcud olan terminlər və onların izahından da istifadə edilmişdir. Bəzən məntiqi terminlərlə yanaşı kəlam, fəlsəfə və s. elmlərdə istifadə edilən terminləri də qeyd etmişik. Çünki bu terminlər bizə məntiqdə işlədilən bəzi ifadələrin daha asan başa düşülməsinə imkan verəcəkdir. Nəsirəddin Tusinin "Əsasül-iqtibas" əsəri əsasında məntiqə dair terminlər lüğəti bu sahədə atılmış ilk addımlardan biri olduğu üçün gələcəkdə daha sanballı və həcmcə daha geniş terminoloji lüğətlərin hazırlanması nəzərdə tutulur.

***Şahin Yəhyayev***

1. Analutiqa əl-sani – İkinci analitika. Əsasül-iqtibasın beşinci, Aristotel Orqanonun dördüncü hissəsi olan “Birinci analitika” məqaləsi “sübut” və ya “arqumentasiya”-dan bəhs edir. Aristotel məntiqinin şərhçiləri bu sözü “Abozetiqa”, “Afodotiqa” və “Anozotiqi” kimi müxtəlif variantlarda qeyd etmişlər. Bütün bu variantlardan yunan variantına ən yaxın olanı “abodeqtika” kəlməsidir. İbn Nədim də özünün “əl-Fehrest” kitabında elə bu variantı qeyd etmişdir. Ola bilsin ki, digər variantlar əsl variantın təhrif edilmiş formasıdır.

2. Analutiqa əl-ula − Birinci analitika. “Les premieres analytique” yəni “birinci analitika”. Məntiq kitablarında çox vaxt bu kəlməni “analotiqa” yerinə “anolotiqa” kimi yazırlar. “Əsasül-iqtibas” kitabının bütün nüsxələrində “analotiqa” kimi yazılmışdır. İbn Nədim özünün “əl-Fehrest” kitabında onu sözün yunan əslinə uyğun olaraq “analotiqa” kimi qeyd etmişdir. Əsasül-iqtibasın dördüncü, Aristotel Orqanonun üçüncü hissəsi olan “Birinci analitika” məqaləsi sillogizmlərdən bəhs edir.

3. Arif − hərfən yetkinləşmiş, dərk etmiş, bilici deməkdir. Sufilərdə ən yüksək mərtəbəyə yetişmiş şəxsə deyilir.

4. Armangerayi – ideologiya

5. Badrisə – cəhrənin ağzına salınan çubuq

6. Batil − bir şeyin təkzib edilməsi, danılması.

7. Batinilər − "quranın və İslam hökmlərinin batininə arif olan şəxsin zahiri hökmlərə əməl etməsinə ehtiyacı yoxdur" - tezisini rəhbər tutan inanclı şəxslərdir. Əlbəttə müxtəlif məzhəb və cərəyanların nümayəndələri arasında belə şəxslərə rast gəlmək olar.

8. Bədihi − aksioma (qəbul olunmuş müddəa)

9. Bəqa − əbədi, aradan getməyən, ölməz, həmişə qalan, sonu olmayan. Bu əbədilik başlanğıca deyil, gələcəyə aiddir.

10. Besət − göndərmək, təhrik etmək, diriltmək, dirçəltmək mənaları verən "bəəsə" felindəndir. Terminoloji mənası isə bəşəriyyətə peyğəmbərin göndərilməsindən ibarətdir.

11. Beyət − hakimiyyəti tanımaq, qəbul etmək.

12. Bilqüvvə − potensial

13. Birbaşa istidlallar − birbaşa isbatların əldə edilməsi üçün bilavasitə dəlilllərin özündən yararlanırlar. Bunlar üçdür: sillogizm, induksiya, analogiya.

14. Bürhan – isbat, sübut

15. Bürhan və tərif − burada isbat və tərifdən ibarət elmi anlayışlar, axtarışların növləri, isbatın tərifi, onun prinsipləri, aksiomlar və postulatlar, tərif və onun üzərində şərtlər, tam və natamam təriflər müzakirə edilir.

16. Bürhan-e hüdus – kosmoloji sübut

17. Bürhan-e nəzm − teleoloji arqument

18. Bürhan-e səbr təqsim − ayırıcı vasitəli isbat

19. Bürhan-e xülf – əksini fərz etməklə isbat

20. Cəbr-e tarixi − tarixi determinizm; hadisələrin o cümlədən insan iradəsinin tarixilik prosesində məcburiyyətdən qaynaqlandığını və səbəbiyyət asılılığını inkar edən və səbəbsiz olduğunu qəbul edən təlimdir.

21. Cədəl − topika (mübahisə sənəti və ya nəzəriyyəsi), dialektika − məntiqin tətbiqi ilə bağlı sahələrdən birinin adıdır. Bu-

rada tam elmi deyil, yalnız müəyyən qrup tərəfindən qəbul edilən "məşhur" bilgilərdən istifadə edilir. Bunlar elmi bilgilərə uyğun olmaya, hətta onunla ziddiyyət təşkil edə bilər və əldə edilən istənilən nəticənin özünün də "məşhur" olması kifayətdir.

22. Cəhanbini – dünyagörüşü

23. Cəhəti-qəziyyə − modallıq

24. Cövhər − substansiya; varlığında digər bir şeyə − mövzuya ehtiyacı olmayan nəsnədir. Predikatı və ya aksidensiyanı təmsil etsə də özü predikat deyildir. Aristotel fəlsəfəsində kateqoriyalardan birincisidir. Beş növü var: forma (surət), maddə, onlardan təşkil edilmiş mürəkkəb cisim, əql və nəfs. Qalan doqquz kateqoriya isə aksidensiyalardır.

25. Deduktiv mühakimələr − onlar yalnız doğru olan mühakimə qanunlarına əsaslanırlar.

26. Dini rasionalizm (religious rationalism) − dinin yalnız məntiqin və zəkanın arqumentləri ilə uyğun olan ehkamlarını məqbul hesab edən cərəyan. Dini rasionalizmə əsasən yalnız o müddəanı ağılla qəbul etmək olar ki, onun doğruluğu bütün zaman və məkanlarda bütün ağıl sahibləri üçün isbat olunsun. Bu cərəyana görə məhz bu meyar əsasında dini inanclar sisteminin qəbulu ağlabatandır. Nə mömin şəxsin qərarı, nə hiss və emosiyaları, nə də başqa bir şey imana bəraət qazandırmır. İmanı əsaslandırmanın yeganə yolu onun *maksimum* (yəni bütün ağıl sahibləri üçün bütün zaman və məkanlarda) isbatıdır.

27. Doqma − "doqma" – "ehkam" (yunanca "doqma" – "fikir, təlim, qərar"); bütün vəziyyətlərdə dəyişməyən, həqiqətin

pozulmazlığı üçün qəbul edilmiş müddəa və anlayış. Prinsiplərin dəyişilməzliyini müdafiə edir.

28. Doqmatizm − doqmalara, ehkamlara əsaslanan qeyri-tənqidi təfəkkür; ehkamçılıq. Fəlsəfi doqmatizm doqmaları dəyişməyən dəqiq biliklər və apriori həqiqətlər kimi qəbul edərək, ağlın mütləq həqiqətə çatmasının mümkün olduğunu müdafiə edir. Doqmatizm septisizmin əksidir. Öz fikir və iddiasının mütləq həqiqət olduğunu irəli sürən hər insan və hər sistem doqmatikdir.

29. Dualizm − "ikilik". Təbiətdə, yaxud hər hansı sistemin əsasında mütləq mənada bir-birindən fərqli iki prinsipin olduğunu qəbul edən görüş. Məsələn, xeyir və şər, materiya və ruh, ruh və bədən. Platonun maddə və xəyal aləmi nəzəriyyəsi, Kantın numen və fenomen anlayışı, Aristotelin qüvvə və feil fikirləri dualist nəzəriyyələr sırasındadır. Zərdüştilikdəki Hürmüz və Əhrimən dindəki dualizmin açıq-aşkar nümunəsidir. Dualizmin ziddini monizm − varlığın bir şeydən meydana gəldiyini qəbul edən fəlsəfi nəzəriyyə təşkil edir.

30. Əcnase aliyə - ali cinslər. Məntiqin tərtibatçısı [Aristotel], bu elmin girişində ilk öncə "on kateqoriya" (məqulate–əşr) adlanan "ali cinslər" haqqında söhbət açmışdır. Amma sonra gələnlərin fikrincə, [cinslərin] "ali" və ya "aşağı" olmasından asılı olmayaraq ümumilərin səciyyəvi cəhətini təyin etmək, substansiya və ya aksidensiya olmasından asılı olmayaraq isə obyektiv varlıqlara baxmaq məntiq məsələlərinə aid deyil.

31. Ədəm – "vücud"a qarşılıq kimi yoxluq, heç bir şey. Xəlqiyyatda hər şey ədəmdən yaradılmışdır. Varlığın aradan getməsi, yox olması da "ədəmə çevrilmək" kimi ifadə edilir.

32. Ədl − ədalət. Allahın ədalətli olması deməkdir. Allahın ədalətinin əqllə anlaşıla bilinib-bilinməməsinə gəldikdə, "ədliyyə" tərəfdarları bunu əqli hesab edir, möminin cəhənnəmə, kafirin cənnətə göndərilməsini qeyri-mümkün hesab edir, əhli-hədis və əşərilər isə bunu mümkün hesab edir.

33. Əhli-Beyt − hərfən "ev əhli" deməkdir. Peyğəmbərin (s.) ailəsi başa düşülür. Şiə məzhəbi bura yalnız beş nəfəri − Peyğəmbəri (s.), onun qızı Fatiməni (ə.s), Əlini (ə.s), Həsəni (ə.s) və Hüseyni (ə.s), əhli-sünnə isə Peyğəmbərin (s.) həyat yoldaşlarını da aid edir.

34. Əks-e nəqiz − qarşılaşdırılma

35. Əl-cədəliyyat − dialektika və topika hökmləri. Ərəb dilində "cədəl" sözü mübahisə, dartışma, dialektika kimi tərcümə edilə bilər. Yunan dilində isə "topika" (Topique) adlanır.

36. Əlfaze mutəşabih - oxşar sözlər

37. Əl-ibarat − Əsasül-iqtibasın üçüncü və Aristotelin məntiqi traktatlar toplusunun ikinci hissəsi hesab edilən Peri Herminias məqaləsi "təkliflər" və "qəti ifadələr" haqqındadır. Yunan kəlməsi olan bu söz iki hissədən ibarətdir. Birinci hissə "Peri" yəni "barəsində" və digər hissəsi isə "Herminias" yəni "anlayışların izahı" adlanır. Ona görə də bu hissəyə "əl-İbarə" kitabı da deyilir. Fransızca "De l interpretation" adlanır. "Peri Herminias" sözü "Barirminas", "Baraarmanyas", "Barierminyas" kimi digər formalarda qeyd edilsə də, orjinalına daha yaxın olan sonuncu formadır.

38. Elm − idrak, bilik

39. Elm-e hüsuli − vasitəli idrak

40. Elm-e hüzuri − vasitəsiz idrak

41. Əl-məqulat − “kateqoriyalar”. Burada tək-tək varlıqlar və onlara dəlalət edən sözlər haqqında qanunauyğunluqlar tədqiq edilir. Məntiqin tərtibatçısı [Aristotel], məntiqin girişində ilk öncə “on kateqoriya” (məqulate–əşr) adlanan “ali cinslər” haqqında söhbət açmışdır. Amma Aristoteldən sonra gələnlər bəzi məntiqçilərin fikrincə, [cinslərin] “ali” və ya “aşağı” olmasından asılı olmayaraq ümumilərin səciyyəvi cəhətini təyin etmək, substansiya və ya aksidensiya olmasından asılı olmayaraq isə obyektiv varlıqlara baxmaq məntiq məsələlərinə aid deyil və məntiqdə bu mövzularla məşğul olmaq özünə zülm və əziyyətdən başqa bir şey deyil. Amma şübhəsiz ki, “ali cinslər” olan kateqoriyaları təsəvvür etmədən, bir kateqoriyanı digər kateqoriyadan fərqləndirmək üsulunu bilmədən, sillogizmlərin müqəddimələrini əldə etmək, onlara tərif vermək və onları məhdudlaşdırmaq qeyri–mümkündür. Filosofların fikrincə, ağıl və zehnin dərk edə bildiyi əksər mahiyyətləri kəmiyyət, keyfiyyət, nisbilik, harada, malik olmaq, nə zaman və s. kimi 10 kateqoriyaya daxil etmək mümkündür.

*42.* Əl-müğalat − yunanca “Sofistika” (Sophisticis) adlanır. Bunlar qarşı tərəfi doğru yoldan yayındırmaqla, səhv yola yönəldir. Bu mənada “Sofistika” yalançı hikmət anlamına gəlir.

43. Əl-xitabə − nitq, yunan dilində isə “Ritorika” (Rhetirique) adlanır. Ritorikanın tərifi haqqında Tusi belə qeyd edir: “Ritorika elə bir elmi sənətdir ki, imkan daxilində kütləni arzu

edilənə inandırmaqla (qənaətə yetişdirməklə), onlar tərəfindən onun təsdiq edilməsinə nail olunur. Qənaətə gəlmədə o digərlərindən ən çatarlıdır. Necə ki, topika məcbur etməkdə (ilzamda) ən mənfəətlidir”.

44. Entezai − abstrakt

45. Əql-e fail − aktiv intellekt

46. Əql-e münfəil − passiv intellekt

47. Əqlgəra – rasionalist

48. Əqli − rasional elmi düşüncə tərzi.

49. Əqli olan − əqllə dərk edilən, yaxud əqllə hökm edilə bilən.

50. Ərəz − aksidensiya; o şeydir ki, ondan [şeydən] xaricdə deyil və onun [şeyin] özlüyünü (zatını) biçimləyir, canlı və natiqliyin insan üçün, insanlığın Zeyd üçün olduğu kimi. Ancaq o, [zat] onu [şeyi] vücuda gətirəndən qeyridir.

51. Ərəzi – aksidensiya

52. Ərəzi- xas − xüsusi aksidensiya.

53. Ərəzi-am – ümumi aksidensiya. Ümumi aksidensiya ya bir növə xasdır, məsələn, insan üçün yazmaq və gülmək kimi, ya da bir növdən çoxuna şamil edilir. İnsan üçün “hərəkət etmək” kimi. Birincisinə xassə, ikincisinə ümumi aksidensiya deyirlər. Bəziləri xassəni, xüsusi aksidensiya adlandırırlar. Bəziləri isə xassəni aksidentik fəsl adlandırırlar. Buna görə də ümumilər beşdir. “Cins”, “növ”, “fəsil”, “xassə” və “ümumi aksidensiya”. Bu beş ümumini “sadə beşlik (xəmseyi-mufrədə)” də adlandırırlar.

54. Ərzeş − dəyər, qiymət

55. Ərzeşşenasi − aksiologiya

56. Ərzyabi − qiymətləndirmə, dəyərləndirmə

57. Əsasül-iqtibas − N.Tusinin məntiqə dair qələmə aldığı ən geniş həcmli əsərdir. Bir çox nüsxələrinin sonunda qeyd edildiyi kimi hicri-qəməri tarixi ilə 642, miladi tarixi ilə 1244-1245-ci illərdə yazılmışdır. Lüğəvi anlamda Əsasül-iqtibas sözünün mənası "elmi öyrənməyin əsası" kimi tərcümə edilə bilər. Tusinin bu əsəri niyə məhz Əsasül-iqtibas adlandırmasının dəqiq səbəbi məlum deyil. Ola bilsin ki, bu əsər məntiq barədə yazıldığından və bildiyimiz kimi məntiq elmi də digər elmlər üçün əsas rol oynadığından Xacə Nəsirəddin Tusu bu adı həmin kitaba münasib görmüş və kitabı belə adlandırmışdır. Biz tarixə nəzər saldıqda Əsasül-iqtibas adlı digər müəlliflərin də əsərlərinə rast gəlirik. O cümlədən, onlardan biri də ərəb şeir və nəsr kitablarından bəhs edən Qazi İxtiyarəddin ibn Seyyid Ğiyasəddin Əl-Hüseyninin "Əsasül-iqtibas" kitabıdır. Digər bir kitab isə Mirzə Tahir Vəhid Qəzvini tərəfindən II şah Abbas haqqında yazılan tarix kitabıdır. Əsasül-iqtibas əsəri 9 məqalə və ya başqa sözlə 9 kitabdan ibarətdir. Hər bir məqalə fənnlərə və fənnlər isə fəsillərə bölünür.

58. Əsatir − əfsanələr, nağıllar, əsli olmayan hekayələr, əhvalatlar.

59. Əsər − hərfən iz deməkdir. Kitabda bu termin ilə Allahın yaratdıqları, yaradıcılığı, xəlqiyyatı başa düşülür.

60. Əsl-e mövzu − postulat

61. Əsl-e mütəaref − aksioma

62. Əsmaye mütəcanis - həmcins isimlər

63. Əsmaye mutəşərrikə - müştərək isimlər

64. Əş-şərtiyyət ül-müttəsilə − şərti birləşdirici

65. Əs-sur – kvantor, hüdud

66. Estilah – termin

67. Etibari –subyektiv

68. Əxlaq − etika

69. Fail − aktiv olan, işi görən.

70. Fele naqis – ərəb qrammatikasında naqis feil, natamam feil

71. Feliyyət − gerçəklik, aktuallıq

72. Fəlsəfe- ye təhlili − analitik fəlsəfə

73. Gerdab − burulğan

74. Gəzaf − qəliz

75. Haddə - itibucaq

76. Hall- qərarlaşan

77. Hədd − şəriətdə qanuni cəza, şəri çərçivə. Məntiqdə isə tam dolğun tərifə deyilir

78. Həliyyat- e mürəkkəbə − atributiv hökmlər

79. Həmle muvatat - törədilməyən predikasiya. “O, odur” formasında ifadə edilən predikasiya “törədilməyən predikasiya” adlanır. Törədilməyən predikasiyada subyekt ilə predikat arasında bir cəhətdən müştərəklik və digər cəhətdən isə fərqlilik olmalıdır.

80. Həmli-məşhur − məşhur predikasiya

81. Həml-predikat. Hər vaxt öz zehnimizdə iki anlayışı təsəvvür edib onlardan birini digər bir anlayış ilə izah ediriksə - burada məqsədimiz birinci anlayışın həqiqətinin ikinci anlayışın özü olması demək deyil, məqsəd bu mənanın aid olduğu şeyin ikinci mənanın aid olduğu şey ilə eyni olmasıdır- bu iki mənanı subyekt və predikat adlandırırıq. Məsələn biz “insan canlıdır” dedikdə məqsədimiz bu anlayışın hər ikisinin eyni olduğunu demək deyil, məqsəd “insan” adlanan hər bir şeyin canlılara aid olduğunu deməkdən ibarətdir. Buna görə də hər bir insanın canlı olduğunu deyə bilərik. Bu halda insan “subyekt”, canlı isə “predikat”dır.

82. Həsr − məhdudlanmış, çərçivələnmiş. Dilimizdəki "hasar", "inhisar" sözləri də bu kökdəndir.

83. Hess-o-məhsus − duyğu və hiss

84. Həsti- ye aləm − gerçəklik

85. Hülul-qərarlaşmaq

86. İcabi – iqrari

87. İdealism-e eyni − obyektiv idealizm

88. İfrat – aşırı, həddindən artıq

89. İktisabi − sonradan əldə edilən, qazanılan, bilavasitə olmayan.

90. İllət − səbəb-nəticə münasibətinin komponentidir. Bir şeyin səbəbi, motivi deməkdir.

91. İltizam – zərurət, qaçılmazlıq, borc, məsuliyyət, öhdəlik, müqavilə, konsessiya

92. İltizami − əlaqəli

93. İmkan – hərfən dilimizdəki mənada işlənir. Fəlsəfədə potensial mümkün olan, yəni vücudu zəruri olmayandır. Məntiqdə isə modallıqlardan biridir.

94. İmmanent − bu və ya digər predmetə, hadisə və ya prosesin daxili mahiyyətinə aid olan xassə (qanunauyğunluq); transsendentalın əksi. "Kənarda deyil, daxildə olan" mənasına gələn "immanent" termini mənşəyini Aristoteldən götürmüşdür. Bu termin özünün hərfi mənasında ilk dəfə orta əsr sxolastikasında tətbiq edilməyə başlanmışdır. Terminin müasir anlayışını Kant vermişdir. Transsedent olandan fərqli olaraq immanentlik hər hansı şeyin öz-özündə mövcudluğunu ifadə edir. İmmanentliyə əsasən, yalnız haqqında fikir yürüdülən nəsnələr mövcuddur. Varlıq şüura immanentdir. Obyekt subyektə qırılmaz şəkildə bağlıdır. Din fəlsəfəsində Tanrının kainatın daxilində mövcud olduğu iddiası "immanentlik" termini ilə izah olunur. Məsələn, panteizmə görə, Tanrı transsendental (təbiətdənkənar) deyil, immanentdir, yəni təbiətin daxilindədir.

95. İmmanent teizm (immanent theism) − Allahı kainatın içində, kainatla birlikdə qəbul edən fəlsəfi görüş.

96. İnkari əks − əks təkliflərin inversiyası.

97. İnklüzivizm − dinlərarası münasibətlərin müəyyənləşdirilməsində əsas fəlsəfi yanaşmalardan biri. İnklüzivizm yalnız bir dinin həqiqət, digər dinlərin isə qismən həqiqət olduğunu, yaxud həqiqət olmasalar belə, onların ardıcıllarının əbədi qurtuluşa nail olmasının mümkünlüyünü iddia edən yanaşmadır. İnklüzivistlərə görə, yalnız bir haqq din var. Dinlərin son qayə haq-

qında müddəaları doğru və yalan ola bilər, ziddiyyətli müddəaların bütünlüklə doğru olması qeyri-mümkündür. Deməli, bəziləri doğru, bəziləri isə yanlışdır. Mütləq haqq yalnız biridir və təkcə bir din mütləq haqqın daşıyıcısı ola bilər. Həqiqi nicat yolu da həmin haqq dindir. Buna baxmayaraq, digər dinlərin ardıcılları da müəyyən miqdarda ilahi qurtuluşa nail ola bilər. Əsas yol birdir, digər yollar isə əsas yola yaxınlaşdıqca həqiqətdən yararlanırlar, həmin yolların doğru yolçuları da qurtuluş əhlidir.

98. İnneizm − fitrətçilik. Sonradan qazanılmışın ziddi olaraq, doğuşdan ona aid olan. İnsanda xarakterik xüsusiyyətlərin onunla bərabər doğulmasına, nəsli xüsusiyyətlərin qabardılmasına istiqamətlənmiş fikirlər, iddialar inneizmin əsas mahiyyətini təşkil edir. Bəzi teoloqlar bu fikirdən çıxış edərək, insanda doğuşdan Allahı axtarıb tapmaq təmayülünün mövcud olduğunu iddia etmişlər. Bu görüşə görə, insanda Allahı axtarıb tapmaq, Ona itaət və ibadət etmək meyli anadangəlmədir.

99. İnsangərayi − humanizm

100. İntifa − dilimizdəki mənfi sözü həmin mənşədəndir. Mətndə, əksərən, danmaq mənasındadır.

101. İsağuci – giriş. Məntiqi ilk dəfə tərtib edərək sistem halına salan Aristotel, öz məntiqini altı hissəyə bölüb onu “Orqanon” adlandırdı. Sonra isə ona “nitq” və “şeir” adlı iki traktat da əlavə etdi. Buna görə də Aristotelin məntiq kitabı səkkiz hissə və ya kitabdan ibarət olmuşdur. Ondan sonra isə Tirli Porfiri bir “giriş” yazıb onu “İsagoge” adlandıraraq Aristotel məntiqinə əlavə etdi. Buna görə də məntiq kitabı doqquz hissədən ibarət

oldu. İbn Nədim, özünün “əl-Fehrest” kitabında yazır: “Aristotelin məntiqə aid təlimləri onun özünün tərtibatına görə səkkiz hissədən ibarət olmuşdur. “İsagoge” adlanan fəsil isə Porfiri tərəfindən əlavə edilmişdir. Aristotelin tərtib etdiyi fəsillər birlikdə “Orqanon” adlanır”. İslam alimləri də çox vaxt öz yazdıqları kitablarda Aristotelin həmin təsnifatını əsas götürmüş və “İsagoge” kitabını Aristotel məntiqinə artırmaqla öz kitablarını “doqquz kitab” və ya “doqquz məqalə” formasında tərtib etmişlər. O cümlədən Əbu Əli Sina da özünün “Şifa” adlanan məntiq əsərini doqquz bölməyə ayırmış və hər birini “kitab” adlandırmışdır. Hər bir kitabı fənnlərə bölmüş və hər bir fənni isə fəsillərə ayırmışdır.

102. İstiarə - metafora

103. İstidlal − rasional nəticə, əqli nəticə

104. İstidlal-e ğeyr-e mübaşer − vasitəsiz rasional nəticə

105. İstidlal-e mübaşer − vasitəli rasional nəticə

106. İstihale-ye iade-ye mədum − məhv olmuş bir şeyin yenidən var olmasının qeyri- mümkünlüyü

107. İstiqra − induksiya (xüsusi hökmlərdən ümumi nəticə çıxarmaq metodu). Latın dilində isə “inductio” yönəldilmə, öyüd (navedenie) kimi tərcümə edilir. İnduksiya tam və qeyri-tam olur. İnduktiv mühakimə toplumun bütün fərdlərini əhatə edirsə tam, əks halda isə qeyri-tam induksiya adlanır.

108. Karkərd − funksiya

109. Karşenas – ekspert, mütəxəssis

110. Kəlbe cabbar − Cabbar ulduzu

111. Kəmiyyət − kəmiyyət və miqdar lüğətdə sinonim sözlərdir. Real və xəyali varlıq olmasından asılı olmayaraq öz mahiyyətinə görə bərabər və qeyri-bərabər ola bilən hər nə "kəmiyyət" adlanır.

112. Kəmiyyəte munfəsil − kəsilən kəmiyyət

113. Kəmiyyəte müttəsil − kəsilməz kəmiyyət

114. Keyfiyyət − keyfiyyət. Keyfiyyət, elə bir xarici formadır ki, həmin xarici formaya görə ölçülmə zərurətinə malik olmasın və həmin formanı təsəvvür etdiyimiz zaman digər bir şeyə ehtiyac qalmasın. Bu tərif bütünlüklə keyfiyyəti digər kateqoriyalardan ayırır.

115. Keyhanşenasi − kosmologiya

116. Kull və cüz − tam və hissə. Hər bir fenomen və əşya çoxlu şeylərin toplanması (birləşməsi) ilə əmələ gəlir . Onu "tam", o şeyləri isə həmin tamın "hissələri" adlandırırlar.

117. Lahiq − əlavə, qoşulan, sonradan gələn. Dilimizdə işlənən "ilhaq" sözü də həmin mənşədəndir.

118. Lazime bəyyin - aşkar ayrılmayan

119. Lazime qeyri-bəyyin – qeyri-aşkar ayrilmayan

120. Ləfz – söz

121. Maddə − məzmun

122. Mavəra-e təbiət − fövqəltəbii aləm, metafizika

123. Məbaşir − vasitəsiz

124. Məfhum − anlayış, məfhum

125. Məfhum-e kolli − ümumi anlayış

126. Məhəll - qərarlaşmış

127. Məhmul − predikat

128. Məlul − naticə

129. Mənqul − daşınan

130. Mənteq-e-suri − formal məntiq; biliyin yekun qaydaları haqqında elmdir. Burada təcrübəyə müraciət etmədən həqiqiliyi öncədən müəyyənləşmiş və yoxlanılmış biliklərdən yeni bilik əldə edilir.

131. Məqulat − kateqoriyalar

132. Mərifətşenasi – Epistemologiya

133. Mərifətşenaxti – Epistomoloji

134. Mesdaq − predmet, obyekt

135. Məşşayilər − hərfən "yeriyənlər" deməkdir. Yunan dilindəki "peripatetik" sözünün tərcüməsidir. Qərb şərqşünasları və şərqdə bəziləri onları Aristotelin ardıcılları hesab edirlər. Aristotel piyada yeriyərkən müzakirələr apardığı və tədris etdiyi üçün onun ardıcıllarını belə adlandırmışlar. Dini, fəlsəfi, kəlami məsələlərdə elmi-məntiqi rasional düşüncəyə əsaslanırlar

136. Məxrut – konus

137. Mocibe − iqrari

138. Mocibe-yi cuziyyə − xüsusi iqrari

139. Mocibe-yi kulliyyə −ümumi iqrari

140. Mohməle – qeyri-müəyyən

141. Mokatebat − yazışmalar

142. Monoteizm (monotheism) − yunanca “monos” – tək, yeganə, “theos” – Tanrı. Bir Tanrının varlığını qəbul edən din və fəlsəfi təlim. Təktanrılıqla bağlı dini dünyagörüşü və nəzəriyyə. İslam, Xristianlıq və Yəhudilik ən məşhur monoteist dinlərdir.

143. Moqtəbes − seçilən

144. Moştərək- e ləfzi − omonim

145. Motəradef − sinonim

146. Mövzu – subyekt

147. Muğalite – sofistika

148. Mühərrik-e əvvəl − ilk təkanverici

149. Münfəricə - korbucaqlı

150. Münfəsile-yi inadiyyə − zəruri

151. Münfəsile-yi ittifaqiyyə − təsadüfi

152. Müqəddəm – antesedent

153. Müqəddimat − bir şeyə giriş, hazırlıq mərhələsi ilə bağlı olan məsələ.

154. Müsadirə bil-mətlub – isbatda qapalı dairə

155.Müstədəl kərdən − əsaslandırma, arqument gətirmə

156.Müştəq isimlər - düzəltmə isimlər

157.Müstəvi əks – düz inversiya, təklifdə subyekt və predikatın yerini dəyişmək.

158.Mütabayin − müxtəlif, müxalif

159.Mütabiq − tam uyğun

160.Mütəbayin - kəsişməyən

161.Müttasile-yi lüzumiyyə − zəruri

162.Naməqul − absurd

163.Nəfy - təkzib

164.Nəqiz (lafz) − zidd

165.Nəqz- e qanun − qanun pozuntusu

166.Nəzəriyye-ye Mosol-e Əflatuni − Platonun ideyalar nəzəriyyəsi

167. Poetika − Şeiriyyat, poeziya. Bu hökmlərlə təxəyyüldə olan şeylər haqqında təsəvvürlər yaranır. Bunlar, biz hətta onların tam doğru olmadığını bilsək də, daha çox emosional təsir qüvvəsinə malik olan hökmlərdir.

168. Politeizm (polytheism) − iki və daha çox tanrıya inancın əsasında qurulmuş dünyagörüşünün ümumi adıdır. Politeizm monoteizmə və ateizmə zidd dünyagörüşüdür.

169. Puçənqari – nihilizm

170. Qaimə − düzbucaqli

171. Qanun- e elliyyət − səbəb- nəticə qanunu; hər hansı bir hadisənin əsl səbəbi; bir şeyi meydana gətirən amil və ya qüvvə

172. Qəziyyə −təklif, hökm

173. Qəziyye- ye həmliyye − sadə təklif

174. Qəziyye- ye məhsurə − müəyyən təklif

175. Qəziyye- ye mohməle – qeyri-müəyyən təklif

176. Qiyas – sillogizm. Əsasül-iqtibasın dördüncü məqaləsi silloqizmlər haqqındadır və iki fəndən ibarətdir. Sillogizmlər məntiq elminin ən əsas bölmələrindəndir. Birinci fəndə Tusi müqəddimələri adi təkliflərdən ibarət olan sillogizmlərdən, ikinci fəndə isə müqəddimələri qarışıq-adi və modal təkliflər olan sillogizmlərdən söhbət açır və onların nəticəli və nəticəsi olmayan moduslarını cədvəllər şəklində verir.

177. Qnoseologiya − idrak prosesində subyekt və obyekt arasında münasibətləri, elmin gerçəkliklə uzlaşmasını, kainatın insan tərəfindən dərk edilməsi imkanını, elmin həqiqilik və dürüstlük meyarını öyrənir.

178. Qovle cazim − qəti ifadə

179. Rəveşşenasi − metodologiya

180. Rəvvaqiyyun − Stoiklər. Onlar fikirli fəaliyyətin qanunlarını tədqiq edən elm kimi ilk dəfə məntiq terminini elmi sahəyə daxil etmişlər. Aristotel təfəkkürün forma və məzmununu öyrənən bu elmi analitika adlandırırdı. Aristoteldən sonra onlar formal məntiqin və ümumiyyətlə sistematikanın baniləri idilər. Başqa sözlə desək, Stoiklər fəlsəfənin birinci hissəsi kimi məntiqi nəzərdən keçirirdilər.

181. Salebe − inkari

182. Salibe-yi cuziyyə − xüsusi inkari

183. Salibe-yi kulliyyə −ümumi inkari

184. Saxtar − struktur

185. Səfsəte − Sofistika

186. Şəkkak − səfsətəçi, skeptik

187. Şekl- e əvvəl − birinci fiqur

188. Selsele-ye mərateb- e qəvanin − iyerarxiya qanunları

189. Şühud – intuisiya

190. Sxolastika (scholasticism) − yunanca “scholasticos” – “məktəb”, “məktəbə aid”, Orta əsr xristian Avropasında “məktəb fəlsəfəsi”ni ifadə edən termin. Sxolastiklər Xristianlıq dini etiqadını rasionallıqla əsaslandırmağa və sistemləşdirməyə çalışmışlar. Bunun üçün onlar antik fəlsəfənin (Platonun və xüsusilə Aristotelin) ideyalarından istifadə etmişlər. Orta əsrlər sxolastikasında universallar haqqında müzakirələr mühüm yer tutmuşdur.

191. Tali – suksedent

192. Tədaxole qəzaya – tabeli təkliflər. Keyfiyyətləri, subyekt, predikat və qeyd edilən digər qoşma və aksidensiyaları eyni, kəmiyyətdə bir-birindən fərqli olan iki təklif tabeli təkliflər adlanır. Yəni biri ümumi, digəri isə xüsusi olur.

193. Tədaxul – tabeli

194. Teizm (theism) ‒yunanca “theos” tanrı sözündən törəyib, zəkaya və iradəyə malik, bütün maddi və mənəvi proseslərə təsir göstərən fövqəltəbii varlığı qəbul edən dini-fəlsəfi təlim. Aləmdə baş verən hadisələri Allahın qayəsinin həyata keçməsi hesab edir. Təbii qanunauyğunluq Allahın qayəsindən asılı şəkildə götürülür. Deizmdən fərqli olaraq, Allahın bütün dünya hadisələrində bilavasitə iştirakını təsdiq edir, panteizmdən fərqli olaraq, Allahın transsendental (təbiətdən kənarda) mövcud olduğunu müdafiə edir.

195. Təkəssorgerayi, kəsrətgerayi ‒ pluralizm

196. Təlif – quraşdırma, düzəltmə

197. Təmsil ‒analogiya

198. Tənaqoze qəzaya – kontradiktor. İki təklif keyfiyyətdə müxtəlif və onlardan biri müəyyən, ya qeyri müəyyən fomada mütləq doğru və digəri isə mütləq yalan olarsa zidd (kontradiktor) adlanır. Keyfiyyətdə müxtəliflik isə ola bilsin iki təklifin doğru və yalana bölünməsini tələb etməsin. Məsələn: “insan yazıçıdır, insan yazıçı deyil” kimi. Habelə ola blsin ki, iki təklifin doğru və yalan olmağa bölünməsini tələb etsin. Amma bu mahiyyəti tələb etməsin, digər bir məsələnin səbəbi olsun. Məsələn:

“Zeyd danışandır, Zeyd insan deyil”. Çünki bu bölgü inkarın və iqrarın öz-özlüyündə müxalifliyinə görə deyil, insan və danışan anlayışlarının bərabərliyinə görədir. Amma desək: “Zeyd insandır, Zeyd insan deyil”. Bu halda hər iki təklifin eyni zamanda doğru və yalan olması qeyri mümkündür. Ziddə mövcud olan ixtilaf bu cür ixtilafdır.

199. Tənaquz– ziddiyyət

200. Təqabole qəzaya – qarşılığı olmaq, müqabil. İki təklifdən birinin digərinin qarşılıgı olması onların subyekt, predikat və qoşmalarının, yəni təyin olmaq, şərt, hissə və tam, potensial və real, hərəkət, zaman və məkan baxımından bir, keyfiyyətdə, yəni iqrar və inkarda fərqli olmasıdır. Buna görə də əgər bir [təklifin] subyekti digərinin subyekti, habelə onun predikatı digərinin predikatı ilə eyni, qoşmalar da həmin qoşmalar olarsa və bu təkliflərdən biri inkari və digəri iqrari olarsa deməli bu təkliflərdən biri digərinin qarşılığıdır.

201. Tərbi – kvadrat

202. Tərif- e esteqrayi − induktiv tərif

203. Tərif- e həqiqi − real tərif

204. Tərif- e ləfzi − nominal tərif

205. Təsəvvür – anlayış

206. Təzadde qəzaya – əks, kontrar. Kontrar əks odur ki, qarşılıqlı əks olsalar da, hər iki təklif doğru ola bilməz, amma hər ikisinin yalan olması mümkündür. Çünki iki əkslik cəm ola bilməz amma kənarlaşdırıla bilər.

207. Ulum- e əqli − rasional elmlər. Əqli elmlər deyərkən isə əqli mühakimələr əsasında əldə edilən biliklər nəzərdə tutulur. Riyaziyyat, məntiq və s. kimi

208. Ulum- e nəqli – nəqli elmlər. Nəqli elmlər deyərkən tarixi sənədlər, mənbələr, əsərlər və s. əsasında əldə edilən biliklər nəzərdə tutulur. Məsələn tarix elmi kimi.

209. Üsul-e din − Dinin təməl prinsipləri

210. Vacib əl-vücud − varlığı zəruri, vacib olan.

211. Vahid xəbər (xəbər al-əhad) − yalnız bir müəllifdən, yəni ravidən nəql edilən xəbərdir. İslam şəriətində çox da etibarlı sayılmır.

212. Vəhdət əl-vücud − irfanda Yaradanla yaradılanın tək qaynaqdan gəldiyini və bir olduğunu müdafiə edən görüş. Sufilərə görə, özü-özlüyündə var olan varlıq (vücud) birdir, o da Allah-Təalanın varlığıdır. Bu varlıq əzəlidir; çoxalma, bölünmə, dəyişmə qəbul etməz. Ancaq Allah zatı etibarilə deyil, sifət və feilləri etibarilə mütləqliyini qoruyaraq və qətiyyən dəyişikliyə uğramadan bütün surət və şəxslərdə təzahür və təcəlli edir. Fərqliliklər və dəyişiklikləri əhatə edən bütün kainat, içindəki canlı-cansız hər ünsür ancaq Onun varlığı ilə ayaqda durur. Başqa sözlə, vəhdəti-vücud Allahın tək varlıq olduğunu, kainatın Allahın görünən forması və əksi, Allahın isə kainatın əsli olduğunu ifadə edən düşüncədir. İbn əl-Ərəbi tərəfindən gətirilmiş termindir. Bu nəzəriyyəyə görə Allahdan başqa heç bir şey real varlığa malik deyil, onlar Allahın sifətlərinin təzahürüdür.

213. Vəhdəti-şühud – bu təlim intellektual əqli nəticələrə (idraka) üstünlük verən və vəhdəti-vücud anlayışına qarşı çıxan sufilər arasında böyük şöhrət qazanmışdır. İrfanda görülə bilən hər nəsnədə Allahı görmək anlamına gələn vəhdəti-şühud anla-

yışının təməlində varlıq ilə Allahın iki ayrı həqiqət müstəvisini meydana gətirdiyi dayanır. Vəhdəti-şühud təsəvvüfdəki “fəna” (Allahda yox olma) vəziyyəti ilə əlaqəlidir. Bu anlayışa görə, zahiri və batini olmaqla, iki növ fəna vardır. Zahiri fənada Allah insana feilləri ilə təcəlli edər. Bu təcəlli əsnasında insanın iradəsi yoxa çıxar, nə özü, nə də başqası üçün nəsə edə bilər. Hər hərəkətində Allahı görər. Batini fənada isə Allah insana sifətləri, ya da zatı ilə təcəlli edər. Zahiri fənada Allah xaricindəki varlıqlar yox olduğu halda, batini fənada görmə halı da yox olar. Fəna vəziyyətindəki zahid Allahdan başqasını görə bilməz. Qəlbində artıq Ondan başqası qalmamışdır. Allah xaricindəki varlıqlarla bağlı şüuru yox olmuşdur. Bu vəziyyət şiddətləndikcə təsəvvüf yolçusu (salik) hər şeydə yalnız Allahı görər, artıq öz varlığı belə, qalmamışdır. Bu vəziyyət qulun yox olması, fənası, Allahın bəqası deməkdir. Lakin Allah xaricindəki varlıqlar gerçəkdə yoxa çıxmamışdır. Həmçinin iki varlıq birləşməmişdir. Mütəsəvvüf fəna vəziyyətindən çıxdıqda bu gerçəyi görər və qəbul edər. Vəhdəti-şühud anlayışına görə fəna halıyla əlaqəli olan bu vəziyyət müvəqqətidir. Bu səbəbdən görülən dünyanın varlığını qəbul etmək və Allah ilə kainatın varlığını bir saymamaq lazımdır. “Hər şey Ondadır” deyilə bilər, amma “hər şey Odur” deyilməsi fəna halının ortaya çıxardığı bir yanılmadır.

214. Vəz- subyekt, durum
215. Vücub − vaciblik. Vacib sözü ilə eyni kökdəndir.
216. Vucud-e xareci – obyektiv
217. Vucud-e zehni − subyektiv

218. Vücudşünasi – ontologiya; varlığı ontoloji aspektdə öyrənən sahə; buna “ilk fəlsəfə” də demişlər. Birinci fəlsəfə terminine ilk dəfə Aristotelin “Metafizika” əsərində rast gəlinir. Müsəlman dünyasında isə Kindi metafizika haqqında yazdığı bir traktatını “ilk fəlsəfə” adlandırmışdır. Lakin ontologiya terminini ilk dəfə alman filosofu R.Qoklenius tərəfindən istifadə edilmişdir.

219. Xass, xüsusi − spesifik, xarakterik, səciyyəvi

220. Xitabə − ritorika, nitq

221. Xodaşenasi − teologiya

222. Zehngərayi – idealizm

## İstifadə olunmuş ədəbiyyat


1. **Bilime adanmış ömür: Nasiruddin Tusi.** Editör: Aykut Kar ve Anar Gafarov. Ankara. Gece kitaplığı yayını. 2017, 320 seh.
2. L. Nəbəvi, “**Yeni məntiq**”, Tehran-2005.
3. M. Əjeyi, “**Məntiqin binası**”, Tehran-2006.
4. M. Xansari, “**Formal məntiq**”, 2007.
5. Ə. M. Xorasani, “**Müzəffər məntiqinin şərhi, 1-2**”, 2006.
6. Əli İbn Sina, “**İşarat**”, tarixsiz.
7. Əli İbn Sina, “**Şəfa məntiqi**”, 1984.
8. Əllamə Müzəffər, “**əl-Məntiq**”, 2007.
9. Əllamə Təbatəbai Təbrizi, “**Fəlsəfənin əsasları və realizmin metodu**”, Tehran-2009.
10. Əllamə Təbatəbai Təbrizi, “**Fəlsəfənin əvvəli**”, tarixsiz.
11. Həkim Səbzivari, “**Mənzumə**”, 2004
12. İmranoğlu, Rauf. **Məntiq.** Bakı, Parlayan günəş nəşriyyatı. 2011. 464 səh.
13. İsrafilov, Mahir. **Məntiq (nəzəriyyə və praktika).** Bakı, Turan evi nəşriyyatı, 2005, 384 səh.
14. İsrafilov, Mahir. **Məntiq terminlərinin izahlı lüğəti.** Bakı, “MBM” nəşriyyatı, 2007, 352 səh.
15. İsrafilov, Mahir. “**Məntiq**”**.** Bakı, 1987.
16. **İzahli Dini Terminlər Lüğəti.** Azərbaycan İlahiyyat İnstitutu. Bakı, “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020, 320 səh.

17. M. M. Ağa Xorasani, “**Əqlin rəhbəri**”, 1985.

18. M. Müntəziri, “**Məntiq-1**”, 2001.

19. M. Mütəhhəri, “**Məcməül-Asar-5 (Şərhi Mənzumə)**”, 1992

20. M. Qulamhüseyn, “**Paradokslar**”, Tehran, 2006.

21. M. Qulamhüseyn, “**Riyazi məntiq**”, Tehran, 2006.

22. Məlikov, Ələddin. (Malikov, Aladdin).**Terminlər və Lüğətlər (1), (2)**, **(3), (4), (5), (8)** // ResearchGate elmi bazası, 2020.

(http://dx.doi.org/10.13140/RG.2.2.36134.06724);
(http://dx.doi.org/10.13140/RG.2.2.29265.89447);
(http://dx.doi.org/10.13140/RG.2.2.20908.41606);
(http://dx.doi.org/10.13140/RG.2.2.19361.76643);
(http://dx.doi.org/10.13140/RG.2.2.12244.55689);
(http://dx.doi.org/10.13140/RG.2.2.34385.89448);

23. Məmmədov, Elvüsal. **İzahlı İslam fəlsəfəsi terminləri lüğəti.** Bakı, “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2020, 192 səh.

24. Nəsirəddin Tusi, “**Əsasul-İqtibas**”, Tehran, 1996.

25. Nəsirəddin Tusi, “**İşaratın (İbn Sina) şərhi**“, Tehran, 2008.

26. Nəsirəddin Tusi. **Əsasül- İqtibas**. Tərcümə: Şahin Yəhyayev. Bakı: Elm nəşriyyatı, 2022, 296 səh.

27. Nəsirəddin Tusi. **Tozlu lövhənin köməyi ilə hesab toplusu**. Tərcümə edənlər: Əmirşah Əmirəhmıdov və Eminağa Məmmədov. Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2011, 172 səh.

28. Rəzəvi, Müdərris. **Nəsirəddin Tusinin Həyatı və**

**Əsərləri.** Tərcüməçilər: Məsiağa Məhəmmədi və Vidadi Mustafayev. Bakı, Nurlan nəşriyyatı. 2002. 212 səh.

29. Sədrəddin Şirazi, **“Məntiq”,** tarixsiz.

30. Seyid A. Ənvar, “**Şərhi Əsasul-İqtibas**”, Tehran, 1996.

31. Seyid Əli Xəndan, “**Praktiki məntiq**”, 2000.

32. Seyid Əli Xəndan, “**Sofizmlər**”, 2001.

33. Suzan Hak, “**Məntiqin fəlsəfəsi**”, M.Ə.Höccətinin tərcüməsi, 2003.

34. Ustad M. Ğərəvi və M. Mötəmidi, “**Müzəffər məntiqinin şərhi**”, 2008.

35. Ustad M. Ğərəvi, “**Müzəffər məntiqinin misalları**”, 1986.

36. Vasim Məmmədəliyev və Ziya Bünyadov. **Quranın tərcüməsi. 1991**

37. Xacə Nəsirəddin Tusi. **Təcrid əl-etiqad.** Kəlam hissəsi. (Tərcümə, ön söz və şərh: Məmmədov E.M.), “Araz” nəşriyyatı, Bakı 2015, 206 s.

38. Xacə Nəsirəddin Tusi. **Təcrid əl-məntiq.** (Tərcümə, ön söz və şərh: Məmmədov E.M.), “Araz” nəşriyyatı, Bakı 2012, 260 s.

39. دکتر سید جعفر سجادی. **فرهنگ اصطلاحات فلسفه ملاصدرا.** تهران، 1379 ه.ش.

40. پرویز بابایی. **فرهنگ اصطلاحات فلسفه.** تهران. انتشارات نگاه، 1386 ه.ش.

41. بهمنیار ابن مرزبان. **التحصیل.** تصحیح و تعلیق: استاد شهید مرتضی مطهری. تهران. انتشارات دانشگاه تهران. 1375 ه.ش.

42. مسعود امید. **فرهنگ اصطلاحات فلسفی.** تهران. انتشارات شفیعی. 1389 ه.ش.

43. محمدتقی مدرس رضوی. **العلامه الخواجه نصیرالدین الطوسی حیاته و آثاره.** تعریب: علی هاشم الأسدی. مشهد. طبع و النشر التابعه للآستانه الرضویه المقدسه. 1419 ه.ق.

44. جواد قاسمی. **فرهنگ اصطلاحات فلسفه، کلام و منطق.** مشهد. بنیاد پژوهشهای اسلامی. 1385 ه.ش.

45. علی کرجی. **اصطلاحات فلسفی و تفاوت آنها با یکدیگر.** قم. بوستان کتاب. 1381 ه.ش.

46. خواجه نصیرالدین طوسی. **اساس الاقتباس.** مصحح: عزیزالله علیزاده. تهران. انتشارات فردوس. 1389 ه.ش.

*Lüğət AMEA Mərkəzi Elmi Kitabxanasının*
*“Nəsirəddin Tusinin məntiq və fəlsəfəyə dair*
*“Əsasül-iqtibas” adlı əsərinin akademik tərcüməsi,*
*tədqiqi və nəşri” elmi-tədqiqat proqramı çərçivəsində*
*nəşr olunur.*

# Nəsirəddin Tusinin “Əsasül-iqtibas” əsəri əsasında məntiqə dair terminlər lüğəti

| | |
|---|---|
| Kompüter tərtibçisi: | *N.Alışanlı* |
| Bədii tərtibat: | *Ş.Məmməd* |

Formatı 60x84 $^{1}/_{16.}$
Həcmi 2,25 ç.v.
Tirajı 65